UOT 711.168

**ƏHMƏDOVA F.T.**

*Azərbaycan Memarlıq və İnşaat Universiteti*

*E-mail: turkuazf20@gmail.com*

## XAÇMAZDA LANDŞAFT MEMARLIĞI HƏLLİNƏ SİSTEMLİ YANAŞMA ÜSULUNUN TƏTBİQİ

Kiçik və orta şəhərləri Azərbaycan respublikasında daha geniş yayılmış şəhər məskənləri saymaq olar. Onlar respublika şəhərlərinin 90% çox hissəsini təşkil edir. II Dünya müharibəsindən sonrakı ilk illər kiçik şəhər qurumlarının yaşıllaşdırılması üzrə geniş miqyaslı işlər başlandı. Bu şəhərlərin yaşıllıq quruculuğu prosesi müxtəlif yollarla baş verirdi.

Əgər Azərbaycanın dağətəyi və dağlıq rayonlarında bağların və parkların salınması çətinlik təşkil etmirdisə, aran və çöl rayonlarında landşaft memarlığının işlərinin aparılması böyük çətinliklərlə qarşılaşırdı.

Azərbaycanın bir çox kiçik şəhərlərinin landşaft memarlığı sxemi nisbətən sadədir. Bunlar: ümumşəhər parkı, fərdi yaşayış evləri nəzdində olan bağlar, şəhər meydan və küçələrinin obrazını formalarından yaşıllıqlardan ibarətdir. Bunu respublikanın iri olmayan səhərlərinin bağ-park strukturu ilə hətta ilk tanışlıq belə şəhərlərin kompleks inkişaf fərdiliyi də sübut edir.

Azərbaycan Respublikasının orta və kiçik şəhərlərinin landşaft memarlığı onların təbii əhatəsi ilə birbaşa əlaqəlidir. Təbiət mühiti ilə, yəni dağ sahələri ilə, akvatoriyalarla, meşələrlə six əlaqələr respublikanın bir çox kiçik və orta şəhərlərinin başlıca dəyəridir. Məsələn, Xaçmaz şəhərinin landşaft memarlığı və şəhərətrafı təbii yaşıllıqlar əlaqəliyi ona fərdi xüsusiyyətlər verir.

1980-ci illərin əvvəllərində, Azərbaycanda 29 şəhərin yaşıllaşdırılması və abadlaşdırılması məsələləri həllini əks edən baş planlar tərtib edilmişdir. Bəzi kiçik şəhərlərin baş planları ilə yanaşı, onlar üçün küçə, meydan və memorial xiyabanları üçün yaşıllaşdırma planları tutulmuş və layihələr tərtib edilmişdi. Məsələn, Xaçmaz şəhəri (1972) üçün küçə yaşıllaşdırılmasını nəzərə alan, onların nizamlanmasına aid planı tərtib edilmişdir.

Xaçmaz kiçik şəhərlərin daxilində, həm də onla hüdudlarından kənarda yerləşən, çaylar suvarılan əraziləri genişləndirdi, yaşayış yerlərinin sürətlə yaşıllaşması üçün əlverişli olan ilkin şərtlər yaratdı [1]. Landşaft memarlığının təşkili memarlardan böyük məsuliyyət tələb edirdi və belə məsələlərini köhnə üsullar həll edilməsi qeyri-mümkün idi. Yaşayış yerlərinin yeni planlaşdırmasına əsasən, tikinti prinsiplərinin işlənib hazırlanması və məişət, yaşıllıq şəraitlərinin yaxşılaşdırması və vizual kommunikasiya tiplərinin yaradılması yalnız landşaft memarlığının kompleks yanaşma əsasında həyata keçirilməsini tələb edirdi.

1955-1960-cı illərdə Xaçmaz şəhərinin yaşayış tikililərinin formalaşma prosesində xeyli hissələrində məhəllələr ləğv edilib kvartal strukturuna keçirildi [2]. Lakin Bu proses Xaçmaz şəhərin formalaşmış köhnə memarlıq-landşaft təşkilini pozmadan baş verdi və şəhərdə yeni iri sahələrin tikilməsi, yaşayış rayonları daxilində yaşıllaşdırmanın kompleks şəklində salınması, bağ-park strukturunun təbəqələşdirməyə, yaşıllıqların nəqliyyat magistralı boyu əkilməsinə imkan yaratdı. Bununla yanaşı, digər komplekslərin də inkişafı Xaçmaz şəhəri üçün əlverişli oldu, lakin bu inkişaf onun əhalisinin spesifik həyat şəraitlərinə və ənənələrinə uyğun gəlmədi.

Sovet quruluş sisteminə xas olan xüsusiyyət bu şəhərin yeni baş planında landşaft memarlığı ilə birgə işlənməsini tələb etdi. Bununla da səmərəli yerləşməsi və kooperasiyası qovşaq yerlərində yeni yaşıllaşdırma prinsiplərinin qurulmasını tələb etdi [3]. Bu üsullar sistemi Xaçmazın inkişaf yollarını, bağ-park inkişafının kompleks həllini və istirahət zonalarının landşaft memarlığı məsələlərinin həllini də müəyyənləşdirirdi.

Bu mərhələdə onun ətraf mühitin mühafizə məsələlərinə böyük diqqət yetirilirdi.

Xaçmazın 1972-ci ildən sonra yenisi 1987-ci ildə tərtib edilməsi landşaft memarlığının inkişafına əlverişli təsir göstərdi. Bu şəhər üçün insolyasiya tələblərini, relyef şəraitlərini digər təbii xüsusiyyətləri nəzərə alan, azad (mənzərəli) yaşıllaşdırma üsulları xarakterik idi [4]. Bu da bütün funksional, iqtisadi-texniki və estetik tələblər kompleksini nəzərə alaraq, landşaft memarlığının sosial məsələlərini daha səmərəli həllinə imkan verdi.

2005-ci illərin əvvəllərindən başlayaraq şəhərin landşaft memarlığının inkişafında yeni tendensiyalar özünü göstərirdi və ilk növbədə aydın oldu ki, bağ-park quruculuğu üsulları real olmalı və bu məskənin təbii xüsusiyyətlərinə, relyefin xarakterinə və iqlim şəraitlərinə uyğunlaşmalıdır. Son illərin mühüm tendensiyalarından biri də onun landşaft memarlığının məsələlərinə kompleks yanaşma metodunun tətbiq edilməsi şəhərin ekoloji vəziyyətni və ətraf mühitlə olan əlaqələrində ahəngdarlıq yaratdı. Hesab edirik ki, toplanan landşaft layihələr və yaşıllıq quruculuğunun yeni təcrübəsi müəyyən səbəbdən, onun bir sıra landşaft memarlığı tətqiqini vacib etdi.

Landşaft memarlığında memarlıq formalarının funksional xüsusiyyəti (kafe, kitabxana, kinoteatr, trelyajlar, perqolalar və meydan-

çalar) onun yeni mahiyyətini yaratdı. Bu səbəbdən də, müasir və qədim memarlığın qarşılıqlı əlaqəliyi ön plana keçdi və müasir landşaft memarlığının yaradılması prosesinə münasibət dəyişdi. Beləki, onun landşaft memarhğının ənənələrinin hərtərəfli nəzərə alınması ilə yanaşı dəyişən cəmiyyətin tələblərə cavab verən metodlar təklif olundu.

Bununla da Xaçmazdea tədricən bulvar geniş vüsat tapdı, ictimai tikililərin çox mərkəzdə cəmləşərək, mərkəzi meydanın ərazisini və yerini formalaşdırdı. Bu bulvarın hər iki tərəfində ictimai binalar yerləşdirildi və alçaq parter yaşıllığı ilə, heykəllər və fəvvarələrlə tərtib edildi. Böyük bulvar küçəsinin məkan perspektivi dağ ətəyi yaşıl yamaca istiqamətləndirildi. Bu gün şəhərin mərkəzi mədəniyyət və Heydər parkı da burada yerləşir. Lanşafta üzvü sürətdə daxil olan onun sahəsi yerin relyef xüsusiyyətini nəzərə alır və enli pilləkənlər vasitəsilə parkın baş girişinə aparır.

Xaçmazın 1987-ci ildə Azərbaycan Dövlət layihə institutunda işlənib hazırlanan baş planında şəhərin landşaft memarlığında işkişafına böyük diqqət yetirmişdir. Şəhərin landşaft kompozisiyasını onun təbii şəraiti və planlaşma oxları formalaşdırır. Bu səbəbdən də, Xaçmaz şəhərinin yaşıl zonasına üç hissəli planlaşdırma quruluşu xasdır. Şəhərin içtimai mərkəzi ətraf əraziyə hakim mövqe tutan çayın üstündə yerləşir. Şəhər mərkəzinə bir neçə yaşıl küçə istiqamətlənmişdir. Baş küçələrin yaşıllıqları, məhəllələrin yaşıllıq sahələri və həyətyanı əkintilər əlavə edilərək, onları tamamlayırlar. Bunun nəticəsində Xaçmaz şəhəri demək olar ki, yaşıllıq içində itib-batır. Belə yaşıllıq məkan strukturları Azərbaycanın bir çox kiçik şəhərləri üçün də səciyyəvidir, çünki onlar həm nizamlı, həmdə "mənzərəli" sxemlər əsasında qurulmuşdur.

Xaçmaz şəhəri Azərbaycanın sahil şəhərlərindən biridir (Xəzər dənizinə yaxın). Onun Böyük Qafqaz dağlarında yerləşməsi, əlverişli təbii-iqlim və topoqrafik şəraitləri burada ağac və kol bitkilərinin müxtəlif növlərin yetişdirməsi yerin relyefı və mənzərəli landşaftı şəhərə ifadəli və yadda qalan bir görkəm verir. Şəhərin ətrafında yerləşən meşə sahələri 25000 hektara yaxın ərazini tutur. Burada palıd, ağcaqayın, fısdıq, cökə, şam, alma, alça, qoz, əzgil, yemişan və digər ağac və kol bitkiləri bitir.

Şəhər ərazisində bağlar və bağçalar bir biri ilə əlaqəlidir. Onların ikisi keçmiş qəbiristanlığın yerində yerləşir. Sənaye zonasına yaxın yerdə idman bazası və klub yerləşir, onların öz yaşıllıq sahələri vardır.

Xaçmazın son illərdəki landaşft-planlaşdırma quruluşu 1986-cı ilin baş planına uyğun, yerin təbii şəraitlərinin və yaşıl məkanların inkişaf tendensiyasının nəzərə alınması ilə müəyyən edilmişdir. Xaçmazın baş planında yaşıllıq əkintilərinin, sənayenin və yaşayışın şərq tərəfə paralel inkişafı nəzərdə tutulmuşdur. Yaşayış ərazisinin inkişaf etmiş bağ sistemi iki yaşayış rayonunun bağlarından ibarətdir və öz növbəsində şəhərin şərq hissəsinin kiçik rayonlarının yenidən qurulan yaşayış ərazisinin həyətlər zonalarının bağlarına bölünür. Deməli, şəhər bağlarının salınması "yaşayışa yaxın yerləşmə" prinsipinin əsasında həyata keçirilir.

Ümumi şəkildə landşaft memarlığına kompleks yanaşma metoduna əsasən ümumşəhər mərkəzi, ona yaxın park və digər kiçik bağları, eləcə də baş şəhər meydanına çıxan bir neçə ikinci dərəcəli mərkəzlərin birgə işləmələri mümkün olmuşdur.

Belə ki, təbii landşaftla üzvü vəhdət tapan Xaçmaz şəhərinin ərazisi əlverişli sürətdə təbiət əhatəsinə daxil olmuşdur. Digər tərəfdən buna dəstək olan şəhərin azmərtəbəli yaşayış tikililərinin nəzdindəki fərdi bağların üstünlük təşkil edən (70 % yaxın) fərqləndirici cəhətləridir. Bununla da şəhərin artıq formalaşmış landşaft-planlaşdırma quruluşu və xüsusiyyəti baş planında nəzərdə tutulan bağ-park qurumlarının seçiminə əhəmiyyətli təsir göstərmişdir.

Bu üzdən, landşaft memarlığının təkmilləşdirilməsi məqsədilə yeni planda park və bağların yenidən qurulması, yaşıl əkintilərinin mövcud fondunun maksimal istifadəsi və saxlanması, əhalinin istirahət şəraitlərinin yaxşılaşdırılması, şəhər rayonları arasındakı ekoloji razılaşma məsələlərinə xüsusi diqqət ayrılmalıdır, çünki onun inkişaına kompleks yanaşma metodunun tətbiqi şəhərin ekoloji məsələri həlli ilə yanaşı xidmət, onun bədii-estetik, memarlıq obrazını da dəyişdirə və əhalisi üçün lazımi komfortluğu yarada bilər.

## ƏDƏBİYYAT

1. Həsənova A.Ə. Azərbaycanın landşaft me-

marlığı. Bakı, 2006, 250 s.
2. Hüseynov F.M., Yusifova N.O. və b. Azərbaycanın kişik və orta şəhərlərinin planlaşma və yeniləşmə prinsipləri. Bakı, "Elm", 2003, 187 s.
3. Cəfərov N.N. Azərbaycan şəhərlərinin bağ-park quruculuğunun formalaşdırılması. Bakı, 2011, 240 s.
4. Гусейнов Ф.М., Кахраманова Ш.Ш. Реконструкция города/Учебное пособие, Издат. "Çaşıqoğlu", Баку, 2003, 100 с.

**Əhmədova F.T.**

*Az.MİU*

*E-mail:* turkuazf20@gmail.com

**Xaçmazda landşaft memarlığı həllinə sistemli yanaşma üsulunun tətbiqi**

Azərbaycanın kiçik və orta şəhərləri arasında Xaçmaz şəhəri landşaft memarlığı məsələlərinin orijinal və innovativ həlli ilə seçilir. Şübhəsiz ki, bu məsələdə əlverişli təbii-memarlıq komponentlərinin və vasitələrinin olması böyük rol oynamışdır. Məqalədə hər bir komponentin şəhərin landşaft memarlığının memarlıq və bədii təsvirinə təsirinin xüsusiyyətləri təsvir edilmişdir. Açar sözlər: memarlıq, landşaft, obraz, amil, Xaçmaz.

***Açar sözlər:*** *memarlıq, landçaft, üsul, amil, Xaçmaz*

**Ахмедова Ф.Т.**

*Аз.АСУ*
*E-mail:* turkuazf20@gmail.com

**Применение системного подхода в решении ландшафтной архитектуры города хачмаз**

**РЕЗЮМЕ**

Среди малых и средних городов Азербайджана г.Хачмаз отличается оригинальным и новаторским решением вопросов ландшафтной архитектуры. Несомненно, в этом вопросе присутствие благоприятных природно-архитектурных компонентов и средств сыграло огромное значение.

В статье излагаются особенности влияния каждого компонента на архитектурно-художественное представление ландшафтной архитектуры города.

***Ключевые слова:*** *архитектура, ландшафт, образ, фактор, Хачмаз.*

**Ahmadova F.T.**

*Azerbaijan Architecture and Construction University*

*E-mail:* turkuazf20@gmail.com

**Application of system approach in the solution of a landscape architecture of Hachmaz city**

**SUMMARY**

Among the small and average cities of Azerbaijan Khachmaz differs from original and innovative solution of issues of landscape architecture. Undoubtedly, in this matter the presence of favorable natural and architectural components and resources are played a huge value. The features of influence of each component on architectural and art representation of a landscape architecture of the city are stated in article.

***Key words:*** *architecture, landscape, shape, factor, Khachmaz.*

*Məqaləyə AMEA-nnın Memarlıq və İncəsənət İnstitutunun "Şəhərsalma" şöbəsinin müdiri, memarlıq üzrə fəlsəfə doktoru, dos. S.M. Abdullayeva rəy vermişdir.*